# Zəfər sevinci - qələbə qüruru

Ömrün ən gözəl anlarını yad etmək şirin və qəlbə huzur gətirən duyğudur. Sən demə, nə vaxtsa xatırladığımız bu sevincli anlar itirilmiş torpaqlarımızı düşməndən azad edən Milli Ordumuzun çağdaş günlərimizdə ürəyimizi dağa döndərən zəfər yürüşlərinin bizə yaşatdığı fərəh hissi, fəxarət duyğusu ilə müqayisədə zəif bir işartı imiş.



Qalibiyyətli döyüş əməliyyatları ilə xalqımızda böyük coşqu yaradan müzəffər Azərbaycan əsgəri azğın düşməni qova-qova kənd-kənd, mahal-mahal, şəhər-şəhər irəliləyir. Bundan böyük sevinc ola bilərmi? Bizə bu möhtəşəm təlatümü, sevinc dalğasını yaşadan, ən əsası isə, yumruqtək birləşib çəkici bir zindana vurmaq nümunəsi göstərən Ali Baş Komandanımıza, Azərbaycan əsgərinə minnətdarlıq duyğumuz sonsuzdur.

Erməni vandalizminin şahidi olan, 30 il ərzində işğal altında, əsirlikdə qalan yurd yerlərimiz xiffətini çəkdiyi igid oğullarımızın, polad biləkli Vətən müdafiəçilərinin qədəmlərinə sevinir, canlanır, nəfəs alır. Şükürlər olsun ki, doğma insanların səsinə, hənirtisinə həsrət yollar-izlər, bağlı qapılar açılır. Bu gün Milli Ordumuz və müdrik Sərkərdəmiz, sözün əsl mənasında, tarix yazır. Son günlərdə azad edilmiş yurd yerlərimizin sırasına Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərinin və çoxsaylı yaşayış məntəqələrinin əlavə olunması ordumuzun gücünü-qüdrətini bir daha göstərir. Bacarıqlı zabitlərimiz, hünərvər əsgərlərimiz hərbi qaydalara uyğun döyüşür, düşmənə qarşı ölüm-dirim mübarizəsi aparır. Mühüm amillərdən biri əsgərlərimizin qorxmadan ağır döyüşlərə atılmasıdır. Çünki əlinə silah alıb cəbhəyə yollanan igidlərimiz öz doğma yurdu naminə vuruşur. Ali Baş Komandanımızın təbirincə desək, "bizim işimiz haqq işi, yolumuz haqq yoludur!"

Ermənistanın işğalçı ordusu isə gücsüz durumda, zavallı vəziyyətindədir. Ölgün, döyüş ruhu zəif olan əsgərin isə qalibiyyət şansı sıfıra bərabərdir. Yeri gəlmişkən, xalq deyimlərimizdən birini xatırladım: "Güc şirin pəncəsində deyil, gözündədir. Məhz sərrast şir baxışı onun döyüşdə qələbəsidir". Digər güc vasitəsi olan silah-sursat qələbə çalmağın əsas şərti ola bilmir çox vaxt, axı zəfər şərbətini dadmaq üçün döyüşən əsgərlərdə torpaq sevgisi, yurd eşqi coşub daşmalıdır. Bu gün torpaqlarımızın hər qarışı uğrunda silaha sarılmış Vətən övladlarının həmrəyliyi, ruh yüksəkliyi kimi. Məhz buna görə Azərbaycan əsgəri öz mübarizə əzmi ilə zəfər çalacaq.

Ermənistan ordusu isə nadürüst əməllərindən əl çəkmir, Gəncənin, Tərtərin, Bərdənin və digər şəhər və kəndlərimizin mülki əhalisinə raket zərbələri endirməklə, qadınları, uşaqları qətlə yetirməklə cəbhədə itirdiklərinin, acınacaqlı uğursuzluqlarının hayıfını çıxmaq istəyir. Düşmənin törətdiyi bu qanlı terror aktları beynəlxalq hüquqa görə hərbi cinayətdir.

Dinc insanların erməni vəhşiliyinin nəticəsi olaraq öz yaşayış evlərində dağıntılar altında qalaraq həlak olması doğrudan da faciədir. Terrorçu Ermənistan bu bədnam əməllərinə görə beynəlxalq tribunal qarşısında cavab verməlidir.

Bu gün bir gözümüz gülür, bir gözümüz ağlayır. Amma ərazi bütövlüyümüzün bərpası, yurd yerlərinin qaytarılması istəyi o qədər möhtəşəmdir ki... Son günlərin döyüşlərində oğlu şəhid olmuş ata ikinci oğlu ilə bərabər savaşa qatılmağa hazırdır. Yaxud şəhid oğlunun tabutu altına girib onu son mənzilə yola salan ananın qürurunu seyr etmək, dodağından qopan "Vətən sağ olsun!" nidasını eşitmək dağ boyda fəxarətdir.

1990-cı illərdə zorla cəlb edildiyimiz birinci Qarabağ müharibəsinin hər günü bir tarix idi. Bu tarixin hərb salnaməsini yaradanlar arasında öz atası, qardaşı, həyat yoldaşı və oğlu ilə birgə erməni faşistlərinə qarşı döyüşən qadınlarımızın da öz yeri vardı. Yaxşı deyiblər ki, heç kim anadan qəhrəman doğulmur və qəhrəmanlıq da yalnız kişilərin taleyinə yazılmayıb. Qarabağ savaşı bu həqiqəti təsdiq edərək xalqımızın hərb salnaməsinə igid oğullarla yanaşı, cəsur və şücaətli qızlarımızın da adlarını yazdı. Burada təəccüblü və təsadüfi heç nə yoxdur. Çünki Ermənistanın Azərbaycana qarşı təcavüzkar, işğalçı müharibəsi ötən əsrin sonunda xalqımızı bir daha imtahana çəkmişdi. Bu həm də iradəmizi, nəyə qadir olduğumuzu, sülhsevərliyimizi, gözümüzün, könlümüzün toxluğunu bütün dünyaya nümayiş etdirmək sınağı, imtahanı idi.

Azərbaycan qadınının dara düşən Vətənin harayına qalxması, onun ağır anlarda silah götürüb döyüşlərə atılması təkcə o qanlı illərin hadisəsi deyildi. Qadınlarımızın kifayət qədər şərəfli qəhrəmanlıq tarixi vardı və Qarabağ müharibəsində kişilərlə çiyin-çiyinə döyüşən ləyaqətli qızlarımız da bu tarixə yeni səhifələr yazmışdı.

Ümumən Qarabağ müharibəsi bu gün də qələm sahiblərini düşündürən, yazmağa sövq edən ağrılı bir mövzudur. Bu hərb qovğası alovlananda özünü yurdun övladı sanan hər kəs cəbhəyə kömək etmək üçün nə isə bir iş görmək istəyirdi. Canında təpər, cəsarət tapan jurnalist həmkarlarımız ön xəttə tələsir, barıt qoxulu yazılar yazırdılar. Vaxtilə "Bakı" və "Baku" şəhər qəzetlərinin müxbiri olaraq, könüllü surətdə qaynar nöqtələrə yollanır, cəbhə reportajları hazırlayırdım.

O illərdə ayaq basdığım hərbi hissələrdə, kazarmalarda gözüm nədənsə döyüşçü qızları axtarırdı. Düşünürdüm ki, düşmənə çəpər oğullar doğma yurd yerini, ana və bacılarını qorumaq üçün doğulublar, hünərlərinə görə qəhrəmandırlar. Dara düşən məmləkətin harayına qalxan qızlar isə ikiqat qəhrəmandırlar.

Həmin illərdə döyüşçü qızların hamısını bir istək birləşdirirdi: Vətənin azadlığı naminə düşmənlə amansız mübarizə aparmaq, nəyin bahasına olursa-olsun qələbəyə kömək etmək! Həkim Gültəkin, rabitə komandiri Gülbar, sıravi döyüşçülər Kəmalə, Xanımzər, Aliyə, Gülpəri, Diləfruz, Sədaqət, Qaratel, Nurcahan, Cəvahir, Rəhilə, Könül, kəşfiyyatçı Səadət, Növrəstə, tankçı Şirin, cərrahiyyə tibb bacıları Məleykə, Radə, Sevda, Rüxsarə və onlarca başqaları haqqında yazılmış oçerklərdə Azərbaycan qadınına xas məziyyətlər - cəsurluq, ismətlilik, yenilməzlik və Vətənə sədaqət öz əksini tapmışdır.

İyirminci yüzilliyin acı həqiqətləri, dəhşətləri qadını həqiqətən əsgərə çevirmişdi - öldürməyə, məhv etməyə hazır olan əsgərə. O, müharibəyə tibb bacısı, həkim kimi təkcə yaralıları xilas etmək üçün getmədi. Rabitəçi, nişançı oldu, düşmənə güllə atdı, yağılara qurşunlar yağdırdı...

Bu gün Azərbaycan igidləri döyüşür, düşmənə sarsıdıcı zərbələr endirirlər. Tezliklə Qələbə bizim olacaq. Vətənimizin ərazi bütövlüyü təmin ediləcək. Ordumuzun yüksək döyüş ruhu və sarsılmaz birliyi bizə intizarında olduğumuz o böyük Zəfər sevincini yaşadacaq.

Qolun bükülməsin, Azərbaycan əsgəri!

***Zemfira MƏHƏRRƏMLİ,***
***yazıçı-publisist***

Azərbaycan.- 2020.-4 noyabr.- S.7.